# Azərbaycan – Çin əlaqələri sağlam əsasda uğurla inkişaf edir

***Çin və Azərbaycan respublikaları arasında möhkəm diplomatik və mədəni əlaqələr mövcuddur. Bu əlaqələr ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra, 1992-ci ilin aprel ayında rəsmiləşərək daha da inkişaf etmişdir. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Çin Xalq Respublikası olub.***



Çin dünyanın dərin keçmişə və çoxəsrlik tarixə malik olan ən böyük dövlətlərindən biridir. Bu ölkənin xalqı zaman-zaman çox çətinliklə üzləşib və sərt sınaqları uğurla adlayıb. Çin Xalq Respublikası son dövrlərdə iqtisadi sahədə əldə etdiyi uğurlarına görə dünyada aparıcı mövqe qazanıb. Uğurlu xarici və daxili siyasətin nəticəsində burada davamlı inkişafa nail olunub. Çində bütün sahələrdə özünəməxsus adət-ənənələr var. Hazırda Çin dövlətinin idarəçilik üsul-idarəsinin və iqtisadi quruluşunun dünyada bənzəri yoxdur. Çinlilər bunu spesifik xüsusiyyətləri olan idarəçilik forması adlandırırlar. Çinin xarici siyasətinin əsasını başqa ölkələrin daxili işinə qarışmamaq və iqtisadi əlaqələri ikitərəfli qarşılıqlı, faydalı əməkdaşlıq çərçivəsində inkişaf etdirmək təşkil edir. Bu siyasət fəlsəfəsi dünyanın hazırkı problemlərinin fonunda özünü hərtərəfli doğruldur.

Çinlə Azərbaycan arasında əlaqələrin tarixi eramızdan əvvəllərə gedib çıxır. B.e.ə. II əsrin əvvəllərindən başlayaraq, Azərbaycan Şərqi Asiya ölkələrinin Qərblə beynəlxalq tranzit ticarəti yolunda yerləşdiyinə görə, onun bu ölkələrlə ticarət, iqtisadi sahələrdə olduğu kimi, mədəni sahədə də əlaqələr yaratmasına geniş imkanlar açılmışdır.

1991-ci il dekabrın 27-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyan Çinlə diplomatik əlaqələr nümunəvi səviyyədədir. 1992-ci ilin avqust ayında ÇXR-in Azərbaycan Respublikasında səfirliyi açılıb. Az sonra isə Azərbaycanın Çin Xalq Respublikasında səfirliyinin açılması reallaşdırılıb. İki ölkə arasında rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri diplomatik əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edib.

Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyev 1994-cü il martın 7-dən 10-dək Çində rəsmi səfərdə olub və Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin, Baş naziri Li Pen ilə faydalı görüşlər keçirib. Həmin səfər zamanı iki dövlət arasında səkkiz müqavilə imzalanıb. T.Tszemin Heydər Əliyevlə danışıqlar zamanı bildirib ki, onun ölkəsi Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və bütün sahələrdə dostcasına əməkdaşlığın daha da genişləndirilməsi üçün onunla birlikdə səy göstərməyə hazırdır. Ulu öndər Çinin beynəlxalq siyasi və iqtisadi platformalarda böyük rol oynadığını və islahatlar keçirilməsində Çinin təcrübəsinin öyrənilməsinə Azərbaycanın maraq göstərdiyini qeyd edib. Elə həmin gün Tszyan Tszemin və Heydər Əliyev ÇXR ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin əsasları haqqında birgə bəyanat imzalayıblar. İki ölkə arasında hava yolunun açılması haqqında, elmi-texniki və mədəni əməkdaşlıq, təbabət, radio və televiziya, turizm sahəsində qarşılıqlı fəaliyyət haqqında sazişlər də bağlanıb.

Çin Xalq Respublikası Baş nazirinin müavini Tsyan Tsiçen 1996-cı ilin aprelində Azərbaycanda səfərdə olub. Bu zaman ikitərəfli münasibətlərə yanaşı, əsas müzakirə mövzularından biri Azərbaycanın dövlət suverenliyi və torpaqlarının işğalı olub. T.Tsiçen ÇXR-in Azərbaycan Respublikasının torpaqlarının toxunulmazlığını tanıdığını və Azərbaycanın yanında olduqlarını bir daha bəyan edib. Ondan bir il sonra Çin Xalq Respublikasının Ümumçin Xalq Nümayəndələri Məclisinin nümayəndə heyəti Azərbaycana səfər edib və iki ölkə arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi, parlament əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı mühüm görüşlər keçirib.

1998-ci il sentyabrın 8-də Bakıda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfrans da, öz növbəsində, iki ölkə arasında münasibətlərin daha da istiləşməsinə səbəb olub.

Azərbaycan Prezidenti İlham Əliyev də ÇXR-lə münasibətlərin inkişaf etdirilməsinə yüksək diqqətlə yanaşır. 2005-ci ilin martında cənab İlham Əliyev Çin Xalq Respublikasına ilk rəsmi səfər edib. ÇXR-in sədri Xu Szintao bu səfəri iki ölkə arasında münasibətlərin tarixində çox mühüm hadisə kimi qiymətləndirib. O, həmçinin Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən məmnunluğunu bildirib. Öz növbəsində, İlham Əliyev Azərbaycanın Çinlə əlaqələrə xüsusi önəm verdiyini vurğulayaraq, Azərbaycan rəhbərliyinin Çinin işgüzar dairələrinin ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymasına kömək göstərəcəyini deyib. Dövlətimizin başçısı həmin səfər zamanı Azərbaycan–Çin biznes forumunun işində iştirak edib, Böyük Çin səddinə baxıb, həmçinin digər işgüzar görüşlərdə qatılıb.

Ümumiyyətlə, Prezident İlham Əliyev Çinə 2 dəfə (2005, 2015) rəsmi səfər edib və 3 dəfə müxtəlif beynəlxalq səviyyəli tədbirlərdə iştirak etmək üçün bu ölkəyə gedib. 2015-ci ildə Çinə rəsmi səfəri zamanı İpək Yolu iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Həmin memorandum iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün istiqamətləri müəyyən edib.

Azərbaycan tərəfindən həyata keçirilən Bakı–Tbilisi–Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi nəqliyyat-infrstruktur layihələri Transxəzər Şərq-Qərb Nəqliyyat Dəhlizini formalaşdırır, bu isə Çindən Avropaya yük daşımaları üçün əvəzsiz marşrutdur. Bu nəqliyyat marşrutu malların Çindən Avropaya, Avropadan isə Çinə gətirilməsi üçün ən qısa yoldur. 2015-ci ilin avqustunda Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlib. 2018-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə 19 qatarla yük daşınıb. Logistik imkanlar artdıqca yükdaşımaların intensivliyi də artır. Bu isə özündə ikitərəfli ticarət dövriyyəsinin ilbəil dinamik inkişafını ehtiva edir. Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətində Azərbaycanın payı 45 faizə qədərdir. Ölkəmizdə 120-yə yaxın Çin sərmayəli şirkət fəaliyyət göstərir. Azərbaycan və Çin arasında Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mövcuddur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Çin dünya ictimaiyyəti ilə birlikdə problemin sülh yolu ilə həll edilməsi üçün səylərini göstərməyə hazır olduğunu bildirib və BMT-nin müvafiq qətnamələrini hər zaman dəstəklədiyini ifadə edib. Sonrakı dövrlərdə Çinin bu münaqişəyə yanaşma tərzi dəyişməyib. Azərbaycan da Çinin vahid Çin siyasətinə hörmət edir və Tayvanı Çinin vahid hissəsi kimi qəbul edir. 2006-cı ilin oktyabrında Çinin Xarici Ölkələrlə Dostluq Cəmiyyətinin binasında Çin–Azərbaycan Dostluq Cəmiyyətinin (ÇADC) təsis iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 2008-ci ilin avqustunda Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək üçün Çində səfərdə olublar. Pekindəki "China World Hotel" də Olimpiya Oyunlarının mədəni proqramı çərçivəsində "Azərbaycan günü" keçirilib və maraqlı anları ilə yadda qalıb.

Cənab İlham Əliyev daim Azərbaycanla Çin arasında əlaqələrin uğurla inkişaf etdiyini, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb. Fərəh doğuran haldır ki, ölkələrimiz arasında heç bir problem olmayıb və yoxdur. Hər iki dövlət qarşılıqlı şəkildə bir-birinin suverenliyini və torpaqlarının toxunulmazlığını tanıyır. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən olan ÇXR hər zaman Azərbaycanı dəstəkləyib.

Azərbaycan–Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir və bu kontekstdə münasibətlər yüksək səviyyədə davam etdirilir.

Tərəflər hərbi nümayəndə heyətlərinin mübadiləsini, hərbi kadrların hazırlanmasını, hərbi yardım göstərilməsini və digər formalarda əməli əməkdaşlığı da davam etdirirlər. Dörd il əvvəl Azərbaycan Respublikasının Müdafiə naziri Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin ÇXR Dövlət Şurasının üzvü, Milli Müdafiə naziri Vey Fenxenin dəvəti ilə Pekinə səfər etməsi hər iki dövlətin əlaqələrinin yüksək səviyyədə olmasının göstəricisidir. Hərbi təhsil sahəsində əldə olunan razılaşmaya əsasən, Azərbaycan Ordusunun nümayəndələri Çində "Yüksək strateji komandanlıq" kursunda təhsil alıblar.

İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığımız daha da genişlənir, qarşılıqlı siyasi etimad güclənir. Əlaqələr təhsil sahəsini də əhatə edir. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində 1997-ci ildən Çin dili ixtisası şöbəsi fəaliyyət göstərir. İlbəil ikitərəfli tələbə mübadiləsi aparılır. Hazırda Çində 500-ə yaxın azərbaycanlı tələbə təhsil alır.

Müasir mərhələdə Çin Xalq Respublikası böyük potensiala malik olaraq ən müasir texnologiyalar tətbiq edərək yüksək sürətlə tərəqqi edir. Bu gün Çin Milli Neft Korporasiyası, ümumilikdə, Çin şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirak edirlər. Bu sahəyə böyük sərmayə qoyurlar. Çin şirkətlərinin neft layihələrində iştirakı ilə Azərbaycanda neft hasilatı artır.

Bu gün Azərbaycanın Sumqayıt şəhəri ilə Çinin Cu Cou şəhəri arasında qardaşlaşmış şəhərlər çərçivəsində işgüzar əlaqələr mövcuddur. İdman sahəsində rəqabət isə dostluq münasibətləri səviyyəsindədir.

Otuz yaşı olan Azərbaycan–Çin diplomatik əlaqələri sağlam əsasda uğurla davam edir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***